**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**GÜLNAZ RƏFAİL QIZI ƏLƏSGƏROVA**

# BEYNƏLXALQ VƏ DÖVLƏTDAXİLİ HÜQUQDA MƏİŞƏT ZORAKILIĞINA QARŞI MÜBARİZƏ PROBLEMİ

**İXTİSAS: 5603.01-Beynəlxalq hüquq; insan hüquqları**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2016**

Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə olunmuşdur.

**Elmi rəhbərlər:** **hüquq üzrə elmlər doktoru, professor**
**Merejko Aleksandr Aleksandroviç**
**hüquq üzrə elmlər doktoru, professor**
**Əliyev Əmir İbrahim oğlu**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru**
**Əliyev Etibar Əli oğlu**
**hüquq üzrə fəlsəfə doktoru**
**Hətəmzadə Fərid Eldar oğlu**

**Aparıcı təşkilat:** **AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsi**

Dissertasiya işinin müdafiəsi "29__" "_03___" 2016-cı il tarixində saat "____" Bakı Dövlət Universiteti nəznindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z. Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" "______" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Məişət zorakılığı davranış qaydası kimi minilliklər öncə cəmiyyətlərdə öz təsdiqini tapmışdır. Məişət zorakılığı problemi istənilən ölkədə və cəmiyyətdə mövcuddur və ölkənin iqtisadi inkişaf səviyyəsi bu problemə təsir göstərsə də, bu sahədə xüsusi əhəmiyyətli yer tutmur. Lakin demokratik islahatlar yolu tutmuş dövlətlərdə məişət zorakılığına qarşı mübarizəyə hökumət səviyyəsində diqqət yetirilir. Əfsuslar ki, davranış qaydası olmaqla yanaşı məişət zorakılığı yüzilliklər boyu təkrarlanmaqla adət formasını almışdır. Nəhayət ki, XX əsrin sonlarında beynəlxalq ictimaiyyət genderə əsaslanmış ayrı-seçkiliyi pisləməyə başladı və bu öz əksini qəbul edilən beynəlxalq sənədlərdə tapdı. Nəzərə almaq lazımdır ki, məişət zorakılığı gender ayrı-seçkiliyi problemi ilə sıx əlaqədardır. ABŞ-da keçirilən sorğular əsasında məlum olub ki, məişət zorakılığı qurbanlarının 85-90%-nı qadınlar təşkil edirlər[1]. Lakin ailə hüquqları, reproduktiv hüquqlar və məişət zorakılığının qadağan olunması sırf qadın hüquqları kimi tanınmır, bütün insanlara aid edilir[2]. Qadın hüquqları insan hüquqlarıdır[3]. Lakin bu o demək deyil ki, məişət zorakılığının qurbanları sırf qadınlardan ibarətdir. Hər bir yaş və cins kateqoriyasından olan insanlar ailədaxili şiddətin qurbanı ola bilərlər.

İnsan alveri, terrorizm, narkotraffik kimi məişət zorakılığı faktlarına da iqtisadi inkişaf dərəcəsindən asılı olmayaraq dünyanın hər bir ölkəsində rast gəlmək olar. Azərbaycan da istisna təşkil etmir. Dini və milli adətlər, bərqərar olmuş patriarxal ənənələr məişət zorakılığı ilə mübarizəni çətinləşdirirdi. Lakin cənab Prezidentin ölkədə apardığı dövlət və hüquq quruculuğu işləri məişət zorakılığı qurbanlarının müdafiəsindən də yan keçmədi. Son bir neçə ildə bizim respublikamızda da bu problemə ciddi diqqət yetirilməyə başlanıb. Bu onunla bağlıdır ki, Azərbaycanda əsasən qadınlar və uşaqlara qarşı törədilən məişət zorakılığı artıq kütləvi xarakter almışdır və olduqca ciddi problemə çevrilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkə əhalisinin sosial-iqtisadi rifah halının yüksəldilməsinə yönəlmiş bir çox dövlət proqramları, qanunvericilik sahəsində ciddi irəliləyişlərin olması bunun konkret nümunəsidir. Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf və hüquq quruculuğu insan hüquqlarının daha yaxşı və yüksək səviyyədə təmin edilməsinə təkan olmuşdur. Belə halların kütləvi hal alması və tez-tez təkrarlanması ölkəmizdə məişət zorakılığı probleminə diqqət artırmağı və bu

[1]Stelmaszek B., Fisher H. WAVE. Country Report. Vienna. 2012. p. 326.
[2]Donnelly J. Universal humanrightsintheory and practice. 2nd edition. CornellUniversity press. 2003. p.272
[3]BeijingDeclaration and PlatformforAction. 4th WorldConference on Women. 1995. A/CONF 177/20 p. 132



problemlə mübarizəyə istiqamətlənmiş qanunvericilik aktlarının qəbul olunmasını və təkmilləşdirilməsini vacib edir. Çox sevindirici haldır ki, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın dəstəyi ilə bu istiqamətdə xeyli iş görülərək 22 iyun 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olundu və bu da uğurlu siyasətin nümunəsidir. Bildirmək lazımdır ki, bəzi hüquqşünaslar bu qanun layihəsinə qarşı çıxmışdırlar. Onlar bu Qanunun ailə dəyərlərinə və milli mentalitetə zidd olan kimi qiymətləndirirdilər.

Məişət zorakılığı ilə mübarizəyə yönəlmiş və yeni qəbul edilmiş qanunvericiliyə əsasən, məişət zorakılığına son qoymaq üçün zorakılığın ağırlığından asılı olmayaraq müvafiq səlahiyyətli orqan və təşkilatlar dərhal zorakılığa məruz qalmış şəxsin hüquqlarının müdafiəsinə yönələn ağlabatan addımlar atmalıdırlar.

Məişət zorakılığı probleminin qarşısının alınmasında çətinliklər yaradan digər aspekt cəmiyyətdə hakim olan milli mentalitetdir ki, ailədaxili problemlərin ailə vahidindən kənara çıxarılmasını qeyri-mümkün və ya mürəkkəb edir. Son illərdə məişət zorakılığı nəticəsində uğursuz ailələrin, boşanmaların, uşaq cinayətkarlığının, adam öldürmələrin, intiharların, müxtəlif növ fiziki xəsarətlər etrmələrin miqdarı bir qədər artıb. Bununla yanaşı, digər bir problem məişət zorakılığına məruz qalmış şəxslərin hüquq mühafizə orqanlarına etdikləri şikayətlərə sonuncular tərəfindən biganə qalmasından ibarətdir. Bəzi hallarda hüquq-mühafizə orqanları arasında məişət zorakılığı qanunvericiliyi haqqında maarifləndirməninaparılmamasına görə polis və digər cinayət təqibi orqanları ailədaxili zorakılığa dözümlü yanaşırlar və hətta bəzi hüquq mühafizə orqanları əməkdaşları belə hallar baş verdikdə arbitr kimi hərəkət etməyə çalışır, yaxud kişinin tərəfini saxlayır və ya qadına şikayətini geri götürməsini təklif edirlər. Onlar çox vaxt vəzifələrinin qadınları evə qayıtmağa və barışmağa inandırmaqdan ibarət olduğunu düşünür və bu barədə şikayətləri araşdırmırlar. Belə vəziyyət daha çox kənd yerlərində geniş yayılmışdır. Ailədaxili zorakılığa məruz qaldıqlarına görə polis bölmələrinə gedən qadınlar əks tərəfdən məsələnin ailənin daxili məsələsi kimi münasibət göstərilməsi ilə üzləşirlər. Polis orqanlarının əməkdaşları ailədaxili zorakılığın qarşısının alınması və araşdırılması üçün müvafiq tədbirləri həyata keçirməkdən boyun qaçırırlar. Əlverişsiz vəziyyətdə olan qruplara mənsub qadınlar xüsusilə risk altında olurlar.

Məişət zorakılığı probleminin qarşısının alınması dedikdə, məişət zorakılığının anlayışının verilməsi, onun dövlət tərəfindən problem və cinayət məsuliyyəti yaradan hərəkət kimi qəbul edilməsi, cinayətkarın vaxtında cəzalandırılması və qurbanların müdafiəsi və reabilitasiyası nəzərdə tutulur. Yuxarıda qeyd olunan aspektlərdən birinin həyata keçirilməməsi məişət zorakılığı ilə mübarizəni qeyri-effektiv edir. Zorakılıq qurbanlarının müdafiəsinin effektivliyi

dövlətin iradəsindən birbaşa asılıdır. Avropa İnsan Hüquqları Məhkəməsi saysız qərarlarında dövlətlərin lazımi səy konsepsiyasını vurğulamışdır. Yəni dövlət öz yurisdiksiyası daxilində hər bir şəxsin hüquqlarının qorunmasındaseyirci mövqe sərgiləməməlidir, əksinə aktiv hərəkətlərə keçməlidir.

Məişət zorakılığına qarşı mübarizə və onun tətbiqi mexanizmini özündə əks etdirən qanunvericiliyin işlənib hazırlanması hazırda bütün demokratik cəmiyyətlərin hədəfinə çevrilmişdir. Şübhəsiz ki, məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq təşkilatların rolu danılmazdır. Məişət zorakılığının qarşısının alınması sahəsində BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların qəbul etdiyi konvensiyalar, bəyannamələr və tövsiyələr bu sahədə mübarizənin əsas standart və prinsiplərini yaratmışdır. 2011-ci ildə qəbul edilmiş "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair" Avropa Şurasının Konvensiyası məişət zorakılığının qarşısının alınmasında mühüm rola malikdir. Həmin sənədlər dövlətlər üçün qızıl standartlar müəyyən etmişdir. Misal kimi Azərbaycan Respublikasının qanunvericiliyini göstərmək olar. Azərbaycanda bu sahədə qanunvericiliyin olması Konvensiyanın ratifikasiya edilməsinə yaxşı zəmin yaradır.

**Mövzunun işlənmə dərəcəsi.** Məişət zorakılığının müstəqil problem kimi təsbit olunmasına baxmayaraq sovet qanunvericiliyində ailədaxili şiddət ayrıca fenomen kimi qiymətləndirilmirdi və bu sahədə tədqiqatlar çox azdır.

Azərbaycanda da məişət zorakılığı probleminin hüquqi tənzimlənməsi son zamanlar tədqiq olunmağa başlamışdır. Bildiyiniz kimi, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun 2010-cu ildə qəbul olunub və bu zaman ərzində həmin sahədə dərsliklər, dərs vəsaitləri çap olunmasa da, 2011-ci ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanununun kommentariyası hazırlanmışdır.

Bu sahədə tədqiqatlar daha çox ABŞ və Avropada aparılmışdır. Türkiyədə Ayşegül Altınay "Violence against women in Turkey", Rusiyada Yekaterina Krivenko "Women, Islam and international law" əsərlərində məişət zorakılığı problemini tədqiq etmişdirlər. Mendi Börtonun "Legal response to domestic violence", Endrü Faqanın "Human Rights Atlas", Riçard L. Devisin "Domestic violence", Vojdik V.K., Rassel Dobaşın "Simmetry theory", Manfred Novakın "Current issues of human rights", Cek Donnellinin "Human Rights", Holli Consonun "Violence against women: international perspective", Deborah Loktonun "Domestic violence", Radford J., Hester M., Kelly L. Ceyms Brendonun "Crimes of the community: honour-based violence in the UK", Volfqanq Benedekin "European Yearbook on Human Rights", Eva Salisburynin "Domestic violence in medieval texts", Fransin Pikupın "Ending violence against women", Hilari Abrahamsın "Supporting women after domestic violence: loss, trauma and recovery", Coys Brenflek Şennonun "Domestic violence sourcebook", Cun



Kilinqin "Domestic violence", Katalin Fabianın "Domestic Violence in Postcommunist States" və Jaklin Skotun əsərlərində bu məsələlərə toxunulmuşdur.

Tədqiqatın **obyekti** beynəlxalq və dövlətdaxili hüquqda məişət zorakılığına qarşı mübarizə problemi hesab olunur.

Tədqiqatın **predmetini** məişət zorakılığı ilə mübarizənin beynəlxalq və dövlətdaxilində hüquqi müstəvidə tənzimlənməsi və onun tərkib elementləri olan məişət zorakılığından əziyyət çəkən şəxslərin hüquqlarının bərpası məişət zorakılığı qurbanlarının dövlət tərəfindən yaradılmış müdafiə vasitələrindən istifadə etmələrinin hüquqi müxanizminə dair müddəaların əks olunduğu beynəlxalq sənədlər və Azərbaycan Respublikasının qanunvericilik aktları, habelə bu sahədə mövcud olan beynəlxalq məhkəmə praktikası təşkil edir.

Tədqiqatın əsas **məqsədi** məişət zorakılığı probleminin qarşısının alınması üçün məişət zorakılığı qurbanlarının müdafiəsi institutuna aid nəzəri müddəaların, habelə hüquq tətbiqetmə təcrübəsinin öyrənilməsindən, analizindən və bunun əsasında qeyd olunan institutun hüquqi tənziminin və tətbiqi təcrübəsinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsindən ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

- Məişət zorakılığı anlayışının məzmununun müəyyən edilməsi;
- Elmi-nəzəri müddəalar və müxtəlif dövlətlərin qanunvericiliyinin qarşılıqlı və müqayisəli təhlili əsasında məişət zorakılığının qadağan olunmasının mahiyyət və məzmununu təhlil etmək;
- Məişət zorakılığı qurbanlarının dairəsinə aid olan şəxslərin müəyyən edilməsi;
- Məişət zorakılığını törədən şəxslərin dairəsinin müəyyən edilməsi;
- Universal xarakterli beynəlxalq-hüquqi normalar və məişət zorakılığı probleminin qarşısının alınması probleminin nəzərdən keçirilməsi;
- Regional beynəlxalq aktlarda məişət zorakılığını qadağan edən hüquq normalarının təsbit olunmasının əsas istiqamətləri və xüsusiyyətlərinin təhlili;
- Müxtəlif beynəlxalq sənədlərin araşdırılması kontekstində ziddiyyətli normaları üzə çıxarmaq və bununla əlaqədar müvafiq təkliflər etmək;
- Xarici dövlətlərin bu sahədə qanunvericiliklərinin təkmilləşdirilməsi məsələlərinin təhlili;
- Məişət zorakılığının qadağan olunması və qurbanların hüquqlarının müdafiəsinə dair Azərbaycan Respublikasının milli qanunvericiliyinin ayrı-ayrı aspektlərini qarşılıqlı və müqayisəli əsaslar üzrə tədqiq etmək;
- Ailədaxili şiddət qurbanlarının istifadə edə biləcək hüquqi müdafiə vasitələrinin tədqiq edilməsi və xarici ölkələrin qanunvericilik təcrübəsinə əsaslanaraq məişət zorakılığının qarşısının alınmasını tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi;

- Məişət zorakılığının qarşısının alınması sahəsində xüsusi qanunvericiliyin təhlili;

- Bu sahədə qəbul olunmuş mühüm beynəlxalq hüquq normalarının ölkəmizin milli qanunvericiliyinə implementasiyası ilə bağlı görülən tədbirləri müəyyən etmək, habelə müqayisəli təhlillər əsasında mövcud olan üstünlük və çatışmazlıqları aşkara çıxarmaq.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın aparılması zamanı müəllif tərəfindən ümumi dialektika, tarixilik (məişət zorakılığına qarşı mübarizənin tarixi tədqiq olunmuşdur), müqayisəli-hüquqi (məişət zorakılığına qarşı mübarizəni özündə ehtiva edən bir sıra dövlətlərin qanunvericiliklərinin müqayisəli təhlili aparılmış, inkişaf etmiş dövlətlərin qanunvericiliklərində əks olunan nümunəvi hüquq normaların yerli qanunvericiliyə və praktikaya tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür), sistemli-struktur (Azərbaycanda bu sahədə mövcud qanunvericiliyin və praktikanın strukturlu təhlili aparılmışdır), statistika (dövlət qurumlarının və QHT-lərin təqdim etdiyi məlumatlar), məntiqi, formal-məntiqi, konkret-sosioloji metodlardan istifadə edilmişdir. Dissertasiya işinin yazılması prosesində həm ümumielmi (formal məntiqi, sosioloji, sistemli-struktur təhlil, tarixi yanaşma, elmi və praktik materialların ümumiləşdirilməsi), həm də xüsusi elmi metodlardan (müqayisəli hüquqşünaslıq, məntiqilik, statistik təhlil, monitorinq və s.) istifadə edilmişdir. Bundan başqa beynəlxalq müstəvidə məişət zorakılığının qurbanlarının müdafiəsi ilə bağlı fikirlər və hüquqi normalar araşdırılmış, müxtəlif məhkəmə işləri tədqiq olunmuş, məhkəmələrin təcrübi materiallarının ümumiləşdirilməsində məhkəmə statistik tədqiqat üsullarından da istifadə edilmişdi.

**Tədqiqatın nəzəri əsasları.** Bu sahədə tədqiqatlar daha çox ABŞ və Avropada aparılmışdır. Bu sahədə Börton M., Faqan E., Devis R.L., Vojdik V.K., RasselDobaş, Novak M., Donnelli C., Conson H., Lokton D., Radford J., Hester M., Kelly L. Brendon C., Pisklakova-Parker M.,Sinelnikov A., Lukaşeva E.A.,Stelmaszek B., Benedek V., Skot J., Othman N. öz sözlərini demişlər. Bununla yanaşı, insan hüquqları sahəsində hərtərəfli tədqiqatlar aparmış və Azərbaycan müəlliflərindənaşağıdakıların əsərlərinə istinad edilmişdir: Hüseynov L.H., Məmmədov R.F., Cəfərquliyev M., Əliyeva S., Camalzadə Ş., Əliyev Ə.İvə s.

**Tədqiqatın normativ əsasını** insan hüquqlarının müdafiəsi, qadın hüquqlarının müdafiəsi, məişət zorakılığının qarşısının alınması sahəsində qəbul edilmiş beynəlxalq sənədlər, BMT-nin İnsan Hüquqları Komitəsi, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları,xüsusilə İnsan hüquqları haqqında 1948-ci il Ümumdünya Bəyannaməsi, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, 1979-cu il Qadınlara qarşı bütün növ ayrı-seçkiliyin aradan qaldırılması üzrə BMT Konvensiyası, Qadınlara qarşı bütün növ zorakılıq və məişət zorakılığının qarşısının alınması üzrə 2011-ci il Avropa Şurası Konvensiyası



və digər beynəlxalq sənədlər, eləcə də dünya dövlətlərinin və Azərbaycam Respublikasının bu sahədə milli qanunvericiliyi və müvafiq sahələrdə Respublikamızın ikitərəfli müqavilələri müqayisəli əsaslarla geniş şəkildə təhlil olunmuşdur.Bir çox xarici ölkələrin bu sahədə qanunvericiliyinin analizi aparılmışdır. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanunu və digər qanunvericilik aktları da dərin təhlil olunmuşdur. Bununla yanaşı Avropa İnsan Hüquqları Məhkəməsinin işlərinə, İnteramerika Komissiyasının, Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitənin qərarlarına istinad edilmişdir.

**Tədqiqatın empirik əsasları.** Araşdırılan məsələrlə bağlı Daxili İşlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsi kimi dövlət orqanlarının təqdim etdiyi statistik məlumatlardan istifadə olunmuşdur. Bununla yanaşı, məişət zorakılığı problemi ilə məşğul olan həm yerli, həm də beynəlxalq qeyri-hökumət təşkilatlarının hazırladığı hesabatlara da istinad edilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsinin və digər dövlətüstü qurumların qərarlarına da istinadlar çoxluq təşkil edir. Xarici qeyri-hökumət təşkilatlarından Avstriyada yerləşən WAVE, Qazaxıstanda təsis edilmiş Podruqi təşkilatlarının təqdim etdiyi hesabatlardan və məlumatlardan istifadə olunmuşdur.

Dissertasiya işinin **elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan hüquq elmində ilk dəfə olaraq, məişət zorakılığının qarşısının alınması üzrə münasibətlər sahəsində beynəlxalq və milli hüququn qarşılıqlı əlaqələri ilə bağlı nəzəri və praktiki məsələlər, həmçinin məişət zorakılığı qurbanlarının hüquqlarının müdafiəsi, eləcə də məişət zorakılığının qarşısının alınması üzrə qabaqlayıcı tədbirlər üzrə universal və regional beynəlxalq-hüquqi sənədlər və Azərbaycan Respublikasının qanunvericiliyinin müqayisəli şəkildə araşdırılmış, bu sahədə AR qanunvericiliyinin formalaşdırılması və inkişaf xüsusiyyətləri təhlil edilmişdir. Doğrudur, qərb hüquq ədəbiyyatında və xarici dövlətlərin parktikasında qeyd edilən problemin təhlilinə həsr edilmiş elmi araşdırmalar mövcud olsa da, həmin tədqiqatlar xarici dövlətlərin qanunvericiliklərinin təhlili istiqamətində qurulmuşdur. Hazırkı tədqiqat problemə qlobal nöqteyi-nəzərdən yanaşır, AR milli qanunvericiliyinin beynəlxalq-hüquqi normaları ilə müqayisəli şəkildə təhlili aparılır. Nəhayət, tədqiqat işində məişət zorakılığının qarşısının alınması məsələsinin Azərbaycan Respublikasının “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda təsbit olunmuş əsas müddəaların və onun tətbiqi təcrübəsinin analizi əsasında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir.

Bütövlükdə isə, tədqiqatın elmi yeniliyi daha konkret olaraq müdafiəyə çıxarılan aşağıdakı **yeni elmi müddəalarla** ifadə olunur:

1. Məişət zorakılığı kompleks problemdir və anlayışı da olduqca genişdir. Məişət zorakılığı — yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər

birgə yaşamaqlarından sui-istifadə etməklə, şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır.Məişət zorakılığının anlayışı getdikcə genişlənir və bunun nəticəsi olaraq yalnız klassik anlamda fiziki güc nəzərdə tutulmur. Bu tip zorakılığa həm fiziki, həm mənəvi, həm cinsi, həm də iqtisadi təzyiq aiddir. Mürəkkəb problem olaraq məişət zorakılığı epizodunda eyni zamanda bir neçə zoraklılıq formasına rast gəlmək olar ki, bu da öz növbəsində onun ağırlıq dərəcəsini müəyyən etməkdə çətinlik yaradır.

2. Məişət zorakılığına qarşı mübarizə həm dövlətdaxili qanunvericiliklə, həm də beynəlxalq hüquq normaları ilə tənzimləndiyindən kompleks hüquq institutunu təşkil edir. Bununla yanaşı, məişət zorakılığı mürəkkəb tədqiqat sahəsi olduğundanhəmin problemin bir sıra aspektləri cinayət hüququna aid olduğu halda, digər aspektləri isə mülki hüquq, inzibati hüquq vasitəsilə ilə tənzimlənir. Bu da məişət zorakılığının həm horizontal, həm də vertikal səviyyədə kompleks institut olmasına dəlalət edir.

3. Məişət zorakılığı ilə mübarizəni hüquqi müstəvidə effektiv etmək üçün onun yaranma səbəblərini tədqiq etmək çox vacibdir. Belə ki, məsələ sırf hüquqi problem olmadığından onun qarşısının alınmasını da hüquqi müstəvidə axtarmaq yetərli deyil. Özünü günahlandırmaq, şəxsin özünə olan hörmətinin aşağı səviyyədə olması, maliyyə azadlığının lazımi səviyyədə olmaması, ailədaxili şiddətin dərinləşməsindən çəkinmə, zorakılıqdan qaçmaq imkanının olmaması və ən əsası, qorxu hissi kimi psixoloji və sosial səbəblər qurbanları ailədaxili zorakılıq epizodları haqqında cəmiyyəti məlumatlandırmaqdan çəkindirir.

4. Məişət zorakılığına qarşı mübarizə kənara çıxaraq beynəlxalq hüququn fəaliyyət sferasına daxil olur. Bunun üçün beynəlxalq hüquqi əsasların olması zəruridir. Məişət zorakılığının qarşısının alınmasıyalnız dövlətdaxili səviyyədə baş vermədiyindən beynəlxalq –hüquqi sahədə də normativ əsas yaradılaraq qurbanların hüquqlarının müdafiəsi təmin olunur. Beynəlxalq-hüquqi müstəvidə ən effektiv mənbələrdən biri beynəlxalq müqavilələr olduğundanBMT və Avropa Şurası kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində qəbul olunan konvensiyalar məişət zorakılığı qurbanların hüquqlarının müdafiəsində effektiv vasitə rolunu oynayırlar. Beynəlxalq-hüquqi aktların bir çox mütərəqqi müddəaları dövlətdaxili qanunvericiliyə implementasiya olunaraq dövlətdaxili qanunvericiliyin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış standartlarına uyğunluğunu təmin edir.

5. Məişət zorakılığına qarşı mübarizə sahəsində xarici dövlətlərin milli qanunvericiliyi eyni layihə üzərində yazılmasa da, qanunvericiliyin ehtiva etdiyi müddəalar oxşarlıq təşkil edir, çünki məişət zorakılığının anlayışının müəyyən olunması, qurbanların hüquqlarının müdafiəsi və postravmatikperiodda reabilitasiyası, dövlət orqanlarının öhdəlikləri ilə bağlı məsələlər bir çox hallarda eyni prizmadan nəzərdən keçirilir. Azərbaycan Respublikasının məişət



zorakılığının qarşısının alınması üzrə qanunvericiliyinin formalaşması və daha da təkmilləşdirilməsində xarici dövlətlərin, əsasən də Avropa dövlətlərinin müsbət qanunvericilik təcrübəsindən istifadə etmək məqsədəmüvafiq olardı. Qərb ölkələrinin hüquqi təcrübəsi ilə yanaşı, qonşu ölkələrin məişət zorakılığına qarşı uğurlu mübarizə siyasətinə fikir verilməlidir. Xarici ölkələrin qanunvericiliklərinin Azərbaycan Respublikasının qanunvericiliyinə harmonizasiyası resepsiya formasında baş verir ki, bu da öz növbəsindəAzərbaycan Respublikası qanunvericiliyinə bir tərəfdən müstəqillik verir, digər tərəfdən isə ölkələrin dövlətdaxili qanunvericiliklərininyaxınlaşmasını təmin edir.

6. Bu sahədə hüquq ədəbiyyatında olan fikir müxtəlifliyi məişət zorakılığı probleminin özü ilə deyil, onun qarşısının alınması vasitələri ilə bağlıdır. Beynəlxalq elmi cəmiyyətdə məişət zorakılığı yalnız sosial deyil, hüquq müstəvidə də problem kimi tanınır. Bu mənada tam konsensus var. Fikir müxtəlifliyi sırf dövlətin öhdəliklərinin həyata keçirilməsi formalarında hökm sürür. Məişət zorakılığının qarşısının alınması dedikdə mühafizə orderlərinin verilməsi, dövlət orqanlarının adekvat və vaxtında tədbirlərin həyata keçirilməsi başa düşülür. Həmin öhdəliklərin yerinə yetirilməsi dövlətlərin lazımi səy konsepsiyası mövqeyindən yanaşmasını şərtləndirir. Qeyd etmək lazımdır ki, dövlətlərin məişət zorakılığı epizodlarının effektiv araşdırmaq öhdəliyi nəticə deyil, davranış öhdəliyidir.

7. Məişət zorakılığının qarşısının alınmasının səmərəliliyi onun məhkəmə müdafiəsinin təmin edilməsindən asılıdır. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununda təsbit olunmuş hüquqların effektiv müdafiə olunması və həyata keçirilməsi üçün fərdlərin məhkəməyə müraciət etmək hüququ tanınır. Bir çox ölkələrdə məişət zorakılığı ilə bağlı işlərdə qərarların obyektivliyini təmin etmək üçün hakimlərin bu sahədə ixtisaslaşdırılması və ya təlimlərin aparılması təcrübəsi hökm sürür. Azərbaycan Respublikasında da bu istiqanətdə müvafiq addımların atılması zəruri hesab edilməlidir.

8. Məişət zorakılığına qarşı mübarizənin həyata keçirilməsi üçün müvafiq institusional mexanizmlərin daha da təkmilləşdirilməsi və əlaqələndirilməsi zəruridir. Bu mənada Azərbaycan Respublikasında mövcud institusional mexanizmlərin (Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi) qarşılıqlı əlaqəsinin daha da təkmilləşdirilməsi məişət zorakılığına qarşı mübarizənin həyata keçirilməsində mühüm rol oynaya bilər.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində məişət zorakılığının qarşısının alınması institutunun Azərbaycan Respublikasının qanunvericiliyində təsbit olunmuş əsas müddəalarının və onun tətbiqi təcrübəsinin analizi əsasında qanunvericiliyin təkmilləºdirilməsi istiqamətində

təkliflər verilmi°dir. Bundan ba°qa, dissertasiyada müəllif tərəfindən məişət zorakılığı qurbanlarının dairəsinin genişləndirilməsi, mühafizə orderlərinin verilməsində müxtəlif dövlət orqanlarının səlahiyyətləri arasında baş verən kolliziyanın aradan qaldırılması, zorakılığı tətbiq edənlər üçün daha adekvat və çatımlı cəzanın tətbiq olunması və dövlət orqanlarının "lazımi səy" konsepsiyası əsasında öhdəliklərinin ağlabatan vaxt ərzində yerinə yetirməsi haqda təkliflər etmişdir. Tədqiqatçının təklif və tövsiyələrindən Azərbaycan Respublikasının bu sahədəki normayaradıcılıq fəaliyyətində, məişət zorakılığı qurbanlarının əhatə dairəsinin artırılması, zorakılıq törədənlərin uçota alınması, məişət zorakılığı qurbanlarının mühafizə üsullarının təkmilləşdirilməsi və bu sahədə dövlət orqanlarının fəaliyyətini nizamlaya bilən müxtəlif dövlətdaxili qanunvericilik aktlarının qəbul edilməsi və təkmilləşdirilməsində, eləcə də aidiyyəti beynəlxalq sənədlərin, xüsusilə də bu sahədə regional beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası zamanı istifadə oluna bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiyaişi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyasının mövzusu üzrə Azərbaycan Respublikası və Ukraynanın nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan, rus və inglis) dərc edildiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, səkkiz yarımfəsli birləşdirən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Birinci fəsil **"Məişət zorakılığı müasir beynəlxalq və dövlətdaxili hüququn birgə tənzimetmə obyekti kimi"** adlanmaqla özündə iki paraqrafi birləşdirir.

**Birinci paraqrafda** ailədə məişət zorakılığı problemi, onun qurbanları və əsas xüsusiyyətləri təhlil olunur.

İlk növbədə, qeyd etmək lazımdır ki, məişət zorakılığının anlayışını müəyyən etmək asan iş deyildir, bu məhfuma həm hüquqi, həm də sosioloji nöqteyi-nəzərdən yanaşıldığı üçün və qurbanların, subyektlərin diapazonu fərqləndiyinə görə vahid anlayış mövcud deyil. Bir şeyi qeyd etmək yerinə düşərdi ki, məişət zorakılığı qadınlara qarşı edilmiş zorakılığın bir növüdür və



adıçəkilən zorakılıq qadınalara qarşı onların yaxın insanları, ailə üzvləri tərəfindən tətbiq edilir. "Məişət zorakılığı" anlayışı adıçəkilən problemin mahiyyətini göstərmək üçün ən uğurlu ifadədir. Belə ki, məişət zorakılığı problemi bəzi alimlər tərəfindən ailədaxili zorakılıq, məişət mübahisələri, kötəklənən qadınlar, ailədaxili sui-istifadə və s. kimi də adlandırılır ki, o da öz növbəsində problemin hərtərəfli nümayiş edilməsi üçün atılan addımdır[4]. Lakin fikrimizcə, "məişət zorakılığı" anlayışı bu fenomenin geniş miqyasını tərənnüm edən ən uğurlu termindir. Məişət zorakılığı ənənəvi anlamda intim partnyorlar arasında baş verən zorakılığa deyilir. Dar mənada ailədaxili zorakılıq ər-arvad münasibətlərində yaşayan heteroseksualcütlüklərə şamil edilir.[5] Lakin məişət zorakılığının anlayışı ölkədən ölkəyə fərqlənir, çünki məişət zorakılığı problemi bütün cəmiyyətlərdə yayılmasına baxmayaraq hər bir dövlətin daxili tənzimetmə sferasına aiddir və ölkədaxili ümummilli adət-ənənələr, oturuşmuş mentalitet məişət zorakılığının anlayışına öz təsirini göstərir. Mühafizəkar cəmiyyətlərdə məişət zorakılığı qanuni nikahda olan ər və arvad arasında zorakılıq kimi qiymətləndirildiyi halda, qərb ölkələrində məişət zorakılığı təkcə qanuni nikahda olan insanlar arasında deyil, həm də digər yaşayış formalarını seçən intim partnyorlar arasında baş verən zorakılıq kimi qiymətləndirilir. Misal üçün, 1970-ci illərə qədər Böyük Britaniyanın hüquq və məhkəmə sistemi ailədaxili şiddəti qanuni nikahda yaşayan qadın və kişi arasında baş verən zorakılıq kimi qiymətləndirirdi. Zaman keçdikcə, qanunvericiliyin liberallaşması məişət zorakılığından əziyyət çəkənlərə qurban statusunun tanınmasına kömək göstərdi. Bu proses Qərbi Avropa ölkələrində və Amerika Birləşmiş Ştatlarında da geniş yayıldı. Cinsi mənsubiyyətindən vəorientasiyasından asılı olmayaraq, ailə üzvü və ya intim partnyor olan və ya olmuş insanlar arasında baş vermiş zorakılıq, təhlükəli davranış və ya xəyanət, söyüş kimi hadisənin baş verməsi məişət zorakılığı kimi qiymətləndirilir. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunun 1.0.1. maddəsinə əsasən məişət zorakılığı yaxın qohumluq münasibətlərindən birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır.[6] Göründüyü kimi, Azərbaycan Respublikasının qanunvericiləri də ailədaxili şiddətin qarşısının alınması sahəsində son tendensiyaları nəzərə alaraq, "məişət" anlayışını geniş insan kütləsinə şamil etmişdir. Yuxarıda adıçəkilən qanunun 4-cü maddəsinə əsasən, qanun həm qanuni nikahda, həm də qanuni nikahda olmadan birgə yaşayan kişi

[4]Fabian K. Domestic violence in postcommuniststates.Indiana University Press. 2010. p. 11
[5]Shalev C. State reporting and the Convention on the elimination of the all forms of discrimination against women. The Hague: Kluwer Law International. 2000. p. 1
[6]Azərbaycan Respublikasında Məişət Zorakılığının Qarşısının Alınmasına dair Qanunvericilik Toplusu. Bakı. Oskar.2012. 80 s.

və qadına şamil edilir.[7] Bu sahədə dünyadakı son tendensiyaları anlamaq üçün Avropa Şurası çərçivəsində qəbul olunan Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Avropa Şurasının Konvensiyasına (İstanbul Konvensiyasına) nəzər yetirmək kifayətdir. Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası) məişət zorakılığını aşağıdakı kimi müəyyən etmişdir: məişət zorakılığı zorakılıq törətmiş şəxsin zorakılığa məruz qalmış şəxslə əvvəllər və ya hazırda eyni mənzildə yaşayıb yaşamamasından asılı olmayaraq, ailə və ya ev daxilində və ya keçmiş və ya hazırki ər-arvad və ya partnyorlar arasında baş verən bütün fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq hərəkətlərini nəzərdə tutur.[8]

Cinsindən asılı olmayaraq, hər kəs məişət zorakılığının qurbanı ola bilər. Heç bir insan məişət zorakılığına məruz qalmamaqdansığortalanmayıb. Lakin ölümlə nəticələnməyən zorakılıq hərəkətlərinin qurbanlarının 96% -i qadınlardır və zorakılıq hərəkətləri kişilər tərəfindən həyata keçirildiyi halda, zorakılıq qurbanı olmuş qadınların 3%-i digər qadınlar tərəfindən belə rəftara məruz qalmışdır. [9]

Məişət zorakılığını törədən şəxslər və onların hərəkətləri bir-birilərindən fərqlənir. Bəzi məişət zorakılığı törədən insanlar psixoloji zorakılığa əl atarkən, digərləri gündəlik olaraq fiziki gücdən istifadə edirlər. Lakin bəzi faktlar məişət zorakılığının ən qəddar formalarının baş verməsinin indikatoru ola bilər: əvvəllər ölümlə hədələmə faktları; odlu və ya soyuq silahın evdə saxlanılması; zorakılıq aktlarında silahdan artıq istifadə edilməsi; qurbana qarşı aşırı qısqanclıq hissi; boşanma və ya ayrılıqdan sonra fiziki və ya verbal zorakılığa, təqibə məruz qalma; qurbanın oğurlanması; cinsi zorakılıq və ya digər seksual xarakterli hərəkətlər; keçmiş partnyor və ailə üzvlərinə qarşı ailədaxili şiddət epizodları və s.[10] Fiziki zorakılıq bədən xəsarəti, fiziki ağrı ilə nəticələnə bilən fiziki gücün istifadəsi kimi müəyyən olunur. Fiziki zorakılıq döymə, vurma, silkələmə, silləələmə, məcburi qidalandırma, məcburi narkotik vasitələri qəbul etdirmə və s. kimi hərəkətləri özündə ehtiva edir. Ümumilikdə götürdükdə isə, fiziki zorakılıq insanın iradəsinə qarşı onun vücuduna qarşı edilən hər-hansı hərəkətdir. Qadınlara qarşı edilən ailədaxili zorakılığın ikinci bir növü cinsi zorakılıqdır. Cinsi zorakılığın qurbanları zorlamanın psixi fəsadlarından başqa cinsi yolla keçən yoluxucu xəstəliklərdən də əziyyət çəkirlər. "Məişət zorakılığının

[7]Azərbaycan Respublikasında Məişət Zorakılığının Qarşısının Alınmasına dair Qanunvericilik Toplusu. Bakı. Oskar.2012. m.4

[8]Bennett O., Bexley J., Warnock K. Arms to fight, Arms to protect: women speak out about conflict. Panos. London. 1995. p. 121

[9]Burton M. Legal responses to domestic violence.New-York.Routledge-Cavendish. 2008.121 s.

[10]Barnard G.W., Vera H., Vera M., Newman G. Till death do us part: a study of spousal murder.1982.Bulletin of the American Academy of Psychiatry and the Law, Vol10: 271–80 s.



qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, cinsi zorakılıq bu Qanunun şamil edildiyi °əxslərin birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsidir.[11]Qadınlara qarşı ailə daxilində edilən zorakılığın digər bir növü isə iqtisadi zorakılıqdır. Bu tip zorakılıq məişətdə bir partnyorun digərindən maliyyə cəhətdən asılı vəziyyətə salınması ilə nəticələnir. Bu növ zorakılıq yalnız sahiblikdə olan əşyalara deyil, həm də sərəncam və istifadədə olan əşya və mülkiyyətə də şamil edilir.

Ailədaxili şiddətin sonuncu forması psixi zorakılıqdır. Psixi təzyiq məişət zorakılığın bir növü kimi nisbətən gec tanınmışdır və onun beynəlxalq ictimaiyyət tərəfindən zorakılığın təzahürü kimi qəbul edilməsi çox vacibdir, çünki çox hallarda ailədaxili şiddət psixi və iqtisadi təzyiqlə başalyıb, döymə bir çox hallarda isə qətl ilə nəticələnir. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər psixi zorakılıq kimi başa düşülür. Psixi zorakılığının qarşısının alınmasında duran çətinliklərdən biri onun sübuta yetirilməsininçətin olmasıdır, ona görə də bir çox hallarda psixi zorakılıq fiziki gücə keçəndən sonra onun haqqında məlumat müvafiq orqanlara çatmış olur. Psixi zorakılıq latent qalır. Lakin o, həm inzibati cəza, həm də cinayət məsuliyyəti ilə nəticələnə bilər. Psixi zorakılıq nəticəsində şiddətin qurbanında qorxu, xof kimi hislər yaranır. Zorakılıq törədən şəxs fiziki gücün tətbiq edilməsi ilə bağlı hədə -qorxu gələ bilər və ya alçaltma, söyüş söymə kimi epizodlar da psixi zorakılığın təzahür formaları sayıla bilərlər. [12]

**İkinci paraqrafda** məişət zorakılığına qarşı mübarizənin formalaşması və inkişaf tarixi araşdırılır. Ailə daxilində gender bərabərliyinin pozulmasına məişət zorakılığı deyilir. Məişət zorakılığı dünyanın bütün ölkələrində və sivilizasiyalarında yayılıb və insanın nə sosial vəziyyətinə, nə də ki, cinsinə, irqinə bağlıdır. Məişət zorakılığı sosial hadisə kimi bütün dövlətlərdə mövcuddur. Məişət zorakılığının qarşısının alınması üzrə atılan qətiyyətli addım İngiltərədə baş verdi. Belə ki, 1853-cü ildə qəbul olunan "Qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması və cəzalandırılması haqqında" Akta əsasən, ailədə fiziki zorakılığı tətbiq edən kişini qısa müddətə azadlıqdan məhkum etmək imkanı verildi[13]. Novbəti illərdə qadınların hüquqları daha da genişləndirildi və məişət zorakılığı hallarının baş verməsinə görə qadınlara ərindən boşanmaq üçün yüngülləşdirilmişprosedurqaydalarından istifadə imkanı verilmişdir. İlk dəfə ABŞ-

[11]Azərbaycan Respublikasında Məişət Zorakılığının Qarşısının Alınmasına dair Qanunvericilik Toplusu. Bakı. Oskar.2012. 80 s.

[12]Əliyeva S., Camalzadə Ş. Məişət zorakılığına qarşı mübarizə. Praktikum. Bakı. 2013. s. 10

[13]Johnson H., Ollus N., Nevala S. Violenceagainstwomen an internationalperspective. New-York. Springer. 2008. s.9

da XIX əsrin sonlarında qadınlara qarşı zorakılıq cinayət kimi tanındı. Yuxarıda qeyd olunmuş tarixi faktlar bir daha göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə qadın hüquqlarının qorunması prosesi daha erkən başlamışdır. Ancaq bu o demək deyil ki, qərb ölkələrində məişət zorakılığı problmeni yoxdur. XIX əsrin ortalarında İngiltərədə qəbul olunan qanun göstərir ki, məişət zorakılığı problemi narkomaniya, terrorizm kimi XXI əsrin bəlasına çevrilib, amma qərb ölkələrində qadınların öz hüquqlarının anlaması və dövlətin məişət zorakılığını bir problem kimi qəbul etməsi Şərq ölkələri ilə müqayisədə daha erkən baş vermişdir. Məişət zorakılığını ətraflı araşdırdıqda, onun qadın və kişi bərabərliyi ilə sıx əlaqədə olduğu üzə çıxır. Gender və zorakılıq arasında əlaqə mürəkkəbdir.

Gender bərabərliyi dedikdə qanunlarda və real həyatda kişi və qadınlara bərabər münasibətin göstərilməsi və imkanların yaradılması, ailə, icma və ümumilikdə cəmiyyət daxilində ehtiyatlara və xidmətlərə bərabər çıxış başa düşülür. Gender bərabərliyi qadınlar və kişilər arasında gəlirlərin və öhdəliklərin ədalətli və düzgün paylanmasını da nəzərdə tutur.Bir çox hallarda yuxarıda qeyd edilən bərabərliyi əldə etmək və cəmiyyətdə qadınların vəziyyətini kişilərlə eyni səviyyəyə gətirmək üçün dövlət xüsusi proqramlar qəbul etməlidir.

Qadın (feminist) hərəkatları qadınların hüquqlarını reproduktiv sahədə, əmək hüququ sahəsində, məişət zorakılığı məsələsində, siyasi azadlıqlar sahəsində müdafiə etməyə çalışır.[14] Feminizm cərəyan kimi XIX əsrdə Qərbi Avropada yarandı və yayılmağa başladı. Feminist hərəkatı nəzəri cəhətdən inkişaf dövrlərinə görə üç yerə bölünür. Feminist hərəkatının birinci dalğası orta və yuxarı sinif ağdərili qadınları əhatə edirdi və səs vermə hüququ, mülkiyyət hüququ və siyasi azadlıqlar üzərində mübarizəni ehtiva edirdi.[15]I dalğa feminist nümayəndələri yuxarıda adıçəkilən məsələlərə diqqət yetirirdilər. Qadın və kişi bərabərliyini tələb edən yazılar hələ 15-ci əsrə aid olmasına baxmayaraqilk təşkilatlanmış feminist hərəkatı XIX əsrin sonu-XX əsrin əvvəlinə təsadüf edir.Artıq XX əsrin əvvəllərində qadınların ailədaxilində hüquqlarının genişləndirilməsi, həyat yoldaşının seçimində azadlığın tanınması kimi fikirlər səslənirdi. 1918-ci ildə Meri Stops "Evli sevgi" adlı kitabda qadınların evlilikdə kişilərlə bərabər hüquqlara malik olması və seksual istəklərin vacibliyi tezislərini dilə gətirdi ki, bu da, həmin kitabın 1931-ci ilə qədər ABŞ-da ədəbsiz sayılaraq satışdan çıxarılmışdır. 1918-ci il Nümayəndəlik haqda Qanun 30 yaşına çatmış və həyat yoldaşlarının mülkiyyətləri olan qadınların seçkilərdə səs vermək hüququnu tanıdı.

---

[14]Busse M., Spielmann C. Gender Discrimination and the International Division of Labor. HWWA Discussion Paper. 2011. p.24

[15]Dugan L. Domestic violence legislation: exploring its impact on the likelihood of domestic violence, police involvement and arrest. Criminology and Public Policy № 2. 2003. p. 283-312



Evli Qadınların Mülkiyyəti Qanununun qüvvəyə minməsi bu tipli digər qanunların və qanunvericilik aktlarının qəbul olunmasına yol açdı. Birinci dalğanın sona çatması ABŞ-da 1920-ci ildə qadınlara səs vermək hüququnu qazandıran Konstitusiyaya edilmiş 19-cu düzəlişin qüvvəyə minməsi ilə əlaqələndirilir. Bu hərəkatın pik həddi və ən böyük uğuru idi, səs vermək hüququ ilə birlikdə ali təhsildə, iş sahəsində də qadınların hüquqlarının həyata keçirilməsində irəliləyiş baş verdi.

Feminist hərəkatının ikinci dalğası 1960-1980-ci illərə təsadüf edir və iş yerlərində və cəmiyyətdə ayrı-seçkiliyə qarşı geniş spektorlu mübarizəni ehtiva edir. Nəticədə 1988-ci ildə Kanadanın Ali Məhkəməsi ölkənin abort haqqında Qanununu qüvvədən saldı. Buna səbəb isə həmin qanunun qadınların azadlıq və şəxsi toxunulmazlıq hüququnun pozması göstərilirdi. [16]

Üçüncü feminist dalğası hələ də davam etməkdədir və maliyyə, sosial, mədəni sahələrdə diskriminasiya ilə mübarizə aparır. Gender bərabərliyi olmadan məişət zorakılığının aradan qaldırılmasından söz açmaq qeyri-mümkündür. Qadınların sosial müdafiəsi və işlə təminatı və nəticədə iqtisadi azadlığı olmadan ailədaxili şiddət törədən şəxsdən ayrılması şansı real qiymətləndirilmir.

İkinci fəsil **"Məişət zorakılığına qarşı mübarizənin beynəlxalq hüquqi mexanizmləri"** adlanmaqla üç paraqrafı ehtiva edir.

**Birinci paraqrafda** ümumi insan hüquqları sahəsində qəbul edilmiş beynəlxalq-hüquqi sənədlərdə məişət zorakılığı qurbanlarının müdafiəsi probleminin qoyuluşu təhlil edilərək araşdırılmışdır. BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatlar çərçivəsində qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması haqqında beynəlxalq sənədlər qəbul olunmamışdan əvvəl qadınlara qarşı ayrı-seçkilik və zorakılığa digər beynəlxalq sənədlərlə qadağa qoyulmuşdur. 1948-ci il 10 dekabrda qəbul olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsidolayı olsa da, qadınların hüquqlarının müdafiəsindən söz açır. Bəyannamənin 16-cı maddəsi ailədaxili münasibətlər sahəsində qadın və kişilərin hüquq və vəzifələrinin bərabərliyinə birbaşa aiddir. Yetkinlik yaşına çatmış kişilər və qadınlar, irqi, milli və ya dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikah bağlayarkən, nikah vəziyyətində olarkən və onun pozulması zamanı eyni huquqlardan istifadəedirlər.

Qadınların kişilərlə bərabər hüquqlara malik olmasını tərənnüm edən əsas beynəlxalq sənəd Mülki və siyasi hüquqlar haqqında 1966-cı il Paktıdır. Həmin sənədin önəmi böyükdür, çünki qadınların ayrı-ayrı sahələrdə hüquqlarının müdafiəsinə yönəlmiş xüsusi sənədlər olsa belə, ümumilikdə

---

[16]Blanchfield L. International violence against women.Nova Science Publishers, Inc. New York. 2009. p.70

mülki və siyasi hüquqları ehtiva edən və üstəlik məcburi qüvvəyə malik olan yeganə universal sənəddir. Paktda iştirak edən dövlətlər Paktda nəzərdə tutulan bütün mülki və siyasi hüquqlardan kişilərin və qadınların bərabər hüquqda istifadə etmələrini təmin etməyi öhdələrinəgötürürlər.[17]Bu müddəa birbaşa olaraq cinsi mənsubiyyət əsasında ayrı-seçkiliyi qanundan kənar elan edir. Paktın 23-cü maddəsi məzmunca məişət zorakılığının qarşısının alınması ilə daha sıx əlaqədədir. Maddənin 1-ci bəndi dövlətin bu sahədə öhdəliyini nəzərdə tutur. Ailə cəmiyyətin təbii və əsas özəyidir, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.[18]Heç bir nikah onu bağlayanların sərbəst şəkildə və tam razılığı olmadan bağlana bilməz.[19]

Azərbaycan Respublikası böyük nüfuza malik, güclü regional təsisat olan Avropa Şurasının üzvü olduğundan həmin təşkilat çərçivəsində qəbul edilən mühüm beynəlxalq sənədlərin məişət zorakılığı ilə mübarizə sahəsində bilvasitə roluna toxunmaq yerinə düşərdi. Baza rolunu oynayan AŞ çərçivəsində qəbul olunan sənədlərdən biri Avropa Sosial Xartiyasıdır.Əlbəttə, Avropa Sosial Xartiyası adından da göründüyü kimi iqtisadi, sosial hüquqların təminatına həsr olunub.[20] Qadınların ədalətli mükafatlandırılma hüququ, işləyən qadınların analığın müdafiəsi hüququ, ailə öhdəlikləri olan əməkçilərin bərabər imkanlar və bərabər rəftar hüququ Avropa Sosial Xartiyası ilə tanınır və müdafiə olunur.[21] Avropa Şurası daxilində qəbul olunmuş insan hüquqları sahəsində ən fundamental sənəd 1950-ci il Avropaİnsan hüquqları Konvensiyasıdır. Nə konvensiyanın mətnində, nə də ki, fakultativ protokollarda məişət zorakılığının qarşısının alınması haqqında maddə təsbit olunmayıb. Lakin AİHK-nınimplementasiyasına nəzarət edən orqan-Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiya ilə canlı instrument kimi davranır, yəni AİHK geniş tövsif edilərək, məişət zorakılığı cinayətləri ilə bağlı şikayətləri də nəzərdən keçirmək imkanına malikdir. Məişət zorakılığı qurbanları özlərinin məruz qaldığı hüquq pozuntularından asılı olaraq, Konvensiyanın hər hansı maddəsi əsasında Məhkəməyə müraciət edə bilərlər. Misal üçün, AİHK-nın 2-ci maddəsi yaşamaq hüququnu belə ifadə edir: "Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuşcinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa həyatından məhrum edilə bilməz." [22]

[17]International Covenant on Civil and Political Rights, art.3
[18]International Covenant on Civil and Political Rights, art. 23
[19]International Covenant on Civil and Political Rights, art.23.3
[20]Peristiany J.G. Honour and shame: the values of Mediterranean Society. University of Chicago. 1966. s. 143
[21]European Social Charter. www.coe.int, art. 4,8,27
[22]EuropeanConvention on HumanRights. www.echr.coe.int, art.2



Avropa İttifaqı da məişət zorakılığının qarşısının alınması, qadağan olunması, məişət zorakılığının qurbanlarının hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atıb. Həmin addımlar aşağıdakı sahələri əhatə edir: bərabər yanaşma və cinsi təcavüz də daxil olmaqla ayrı-seçkiliyin qadağan olunması [23]; uşaqların cinsi istismarı da daxil olmaqla insan alverinin qadağan edilməsi[24]; qurbanların müdafiəsi[25]. Lakin yuxarıda adı sadalanan sahələr üzrə direktivlər məişət zorakılığına həsr olunmayıblar. Bərabər yanaşma və cinsi təcavüz də daxil olmaqla ayrı-seçkiliyin qadağan olunmasıilə bağlı direktiv iş yerində qadınların hüquqlarının qorunmasını ehtiva edir.

**İkinci paraqrafda** məişət zorakılığı qurbanlarının müdafiəsinə dair spesifik beynəlxalq-hüquqi sənədlər təhlil olunmuşdur. Qadın hüquqlarının müxtəlif sahələrdə müdafiəsini təsbit edən onlarla beynəlxalq sənədlər qəbul edilmişdir. Bu da, qadınların tarixən kişilərlə müqayisədə daha az müdafiəyə və daha çox ayrı-seçkiliyə məruz qalması ilə bağlıdır. Qadınların hüquqlarının təmin olunmasına diqqət çəkmək üçün feminist hərəkatları yaradıldı ki, onun da nəticəsində bu sahədə ilk beynəlxalq konvensiyalar qəbul edildi. Belə ki, 1951-ci ildə Beynəlxalq Əmək Təşkilatı çərçivəsində qəbul edilən "Kişi və qadınların eyni əmək fəaliyyətinə görə bərabər əmək haqqı alması haqqında" Konvensiya əmək münasibətlərində qadınların əmək münasibətlərində ayrı-seçkilikdən qorunmasına həsr edilmişdir. "Qadınların siyasi hüquqları" haqqında 1953-cü il BMT Konvensiyası qadınların onlara heç bir ayrı-seçkilik olmadan kişilərlə bərabər şərtlərlə seçkilərdə iştirak etmək hüququnu müəyyən edir. [26]

Qadınların şəxsi ailədaxili münasibətlərdə hüquqlarını qoruyan digər beynəlxalq sənəd kimi "Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahın qeydiyyatı" haqqında 1962-ci il Konvensiyanı göstərmək olar.[27]

Qadın hüquqlarının müdafiəsi sahəsində yuxarıda adı çəkilən onlarla konvensiya, müqavilələrin olmasına baxmayaraq ikinci fəslin bu bölməsində qadın hüquqlarının müdafiəsinə aid olan əsas iki Konvensiyaya –Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il BMT Konvensiyasına(bundan sonra CEDAW) və Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Avropa Şurasının 2011-ci il tarixli Konvensiyasına (bundan sonra İstanbul

[23]Directive 2002/73/EC concerning equal treatment as regards access to employment and working conditions
[24]Directive 2011/36/EU on preventing and combating trafficking in human beings and protecting its victims
[25]Directive 2012/29/EU establishing minimum standards on therights, support and protection of victims of crime
[26]Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Hüquq ədəbiyyatı. Bakı. 2013. s.183
[27]Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Hüquq ədəbiyyatı. Bakı. 2013. s.185

Konvensiyası) daha çox diqqət yetiriləcəkdir.Bu fəsildə qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və ələxsüs də məişət zorakılığının qarşısının alınması kimi məsələlərdə yuxarıda adıçəkilən Konvensiyaların təsir gücləri müqayisə ediləcək. Xüsusilə də, hər iki konvensiyanın komitələr formasında müəyyən etdiyi müdafiə vasitələrinə, onların effektivliyinə və monitorinq mexanizmlərinin inkişaf tendensiyalarına yer ayrılmışdır. Hər iki konvensiyanın dövlət orqanları, həqiqi və potensial qurbanlar kimi maraqlı tərəflərin hüquq və vəzifələrinə təsiri tədqiq olunacaqdır. Gender əsasında ayrı-seçkilik böyük bir problemə çevrilmişdir və onun həll olunmasının vaxtı artıq gəlib çatmışdır. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il BMT Konvensiyası (CEDAW) əlbəttə ki, bütün dövlətlər üçün açıq olan və məcburi hüquqi qüvvəyə malik olan və qadınlarla kişilər arasında bərabərliyi təsbit edən və gender üzrə ayrı-seçkiliyin ləğvinə yönəlmiş ilk beynəlxalq sənəddir. CEDAW-nun qəbul olunması feminist hərəkatlarının və dünya üzrəqadınların özünüdərk prosesinin inkişafının məntiqi nəticəsidir. Konvensiya daha çox siyasi və ictimai həyatda qadınlara qarşı diskriminasiyanın qarşısının alınmasına yönəlmişdir.

CEDAW-nun qadınların hüquqlarının müdafiəsi sahəsində qəbul olunan sənədlər arasında birinci yer tutması onun "qadınlara qarşı ayrı-seçkili"yin anlayışının verməsi ilə bağlıdır. CEDAW-ya əsasən, "qadınlar barəsində ayrı-seçkilik" anlayışı qadınların ailə vəziyyətlərindən asılı olmayaraq kişi və qadınların hüquq bərabərliyi əsasında insan hüquqlarının və siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdə əsas azadlıqlarınzəifl ədilməsinə, yaxud tanınmasını, qadınların onlardan istifadə etməsini, yaxud onları həyata keçirməsini heçə endirməyə yönəldilmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir.Bu anlayışın böyük rolu var, çünki o, qadınların hüquqlarının gender əsasında pozulmasını göstərir. Qadınlar sadəcə qadın olduqları üçün hüquqları pozulur. CEDAW geniş tövsif olunarsa, yuxarıda adıçəkilən qadınların da hüquqlarını müdafiə etmiş olar. Belə ki, ayrı-seçkilik cinsi mənsubiyyətə əsaslanan fərqləndirmədir və genderə əsaslanan zorakılıq qadınlara qarşı diskriminasiyanın bariz nümunəsidir.[28]CEDAW-dan fərqli olaraq, İstanbul Konvensiyası ayrı-seçkiliyə məruz qalan subyektlərin dairəsini genişləndirir. Müdafiənin əsas subyektləri əlbəttə, qadınlardır, amma azyaşlılar, kişilər və yaşlılar da İstanbul Konvensiyası altında müdafiə olunma imkanı əldə edirlər.İstanbul Konvensiyası

[28]Murthy P. Impact of Gender-basedviolence, conflict, discrimination, terrorism, environmentalfactors and transnationaltrafficking on women and girls. Jones and BartlettPublishers. 2012. S.93



sazişin əhatə dairəsinə dair daha birmənalı və konkret terminləri ehtiva edir. İstanbul Konvensiyasında istiadə olunan "məişət" termini daha genişdir.

**Üçüncü paraqrafda** məişət zorakılığı qurbanlarının hüquqlarının beynəlxalq məhkəmə müdafiəsi elmi-nəzəri və praktiki baxımdan qiymətləndirilmişdir. Anlaşılandır ki, konvensiyalar tərəfindən qadınların hüquqlarının tanınması və onların təsbiti onların reallıqda kişilərlə birgə səviyyədə hüquqlardan yararlanmaq imkanlarının olmasına gətirib çıxartmır. Monitorinq mexanizmi bu sahədə real irəliləyiş əldə etmək üçün təsis olunmuşdur. Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitə (bundan sonra CEDAW Komitəsi) dövlət öhdəliklərinin həyata keçirilməsinə nəzarət etmək üçün təsis edilmişdir. CEDAW Komitəsi demək olar ki, tamamilə qadınlardan ibarət unikal və maraqlı qurumdur.[29] Bu Komitə Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında 18 dekabr 1979-cu il Konvensiyası əsasında 1982-ci ildə təsis edilmişdir.Hesabatda Konvensiyanın müddəalarının həyata keçirilməsi üzrə qanunvericilik, məhkəmə, inzibati və digər tədbirlər barədə dolğun məlumat verilməlidir. 10 dekabr 1999-cu il tarixli Fakultativ Protokola əsasən fərdi şikayətlərə baxa bilər. Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan istənilən fərd, fərdlər qrupu və ya onların adından digər tərəf Konvensiyanın müddəalarının pozulması ilə bağlı Komitəyə müraciət edə bilər. Komitə eyni zamanda qadın hüquqlarının səmərəli şəkildə təmini ilə bağlı ümumi tövsiyələr qəbul edir. İlkin olaraq, Komitə yalnız dövlətlərin hesabatlarını dinləmək üçün yaradılmışdır. Dövlətlərdən yığılan hesabatlar əsasında Komitə beynəlxalq və milli sferalara böyük təsiri olan ümumi tövsiyələr kimi böyük hüquqi mənbə meydana gətirmişdir.[30]CEDAW Komitəsi Konvensiyaya Əlavə Protokol əsasında bütün kommunikasiyalara baxmaq öhdəliyini daşıyır. CEDAW üzv dövlətlər tərəfindən seçilən 23 ekspertdən ibarətdir. Ekspertlər dövlətləri təmsil etmirlər. Əlavə Protokol 2000-ci ildə qüvvəyə mindi və fərdi şikayətlərə baxmada obyektivliyi və neytrallığı təmin etmək üçün CEDAW-nunProsedur Qaydaları təsbit edir ki, üzv dövlətlər özlərinin tərəf olduğu işlərdə tərəf olmayacaqlar. Komitə fərdi şikayətlərə baxdıqda görüşlər qapalı keçirilir. Prosedur Qaydaları Komitəyə imkan verir ki, fərdi işlər üzrə qərarlar səs çoxluğu ilə çıxarılsın. Əlavə olaraq, CEDAW Komitəsi fərdi şikayətlərə baxılmasında yardımçı olan, coğrafi qayda üzrə seçilmiş 5 nəfərdən ibarət İşçi Qrup təsis etmişdir. Ərizə Komitənin katibliyinə faks, poçt və ya elektron poçt vasitəsi ilə göndərilməlidir və anonim olmamalıdır.

[29]Johnson H., Ollus N., Nevala S. Violenceagainstwomen an internationalperspective. New-York. Springer. 2008. s.112

[30]Byrnes A & Freeman M. A., The Impact of the CEDAW Convention: Paths to Equality A Study for the World Bank, *available at:* http://ssrn.com/abstract=2011655

Fərdi şikayətlərə baxılarkən, əgər qurbanın müdafiəsi bunu tələb edirsə, Komitə aralıq tədbirlər təyin edə bilər. Aralıq tədbirlər dövlət tərəfindən yerinə yetirilməlidir. Fərdi şikayətlər üzrə qərarlar ona görə vacibdir ki, həmin qərarlar tövsiyə xarakterli olmasına baxmayaraq onlar Konvensiyada açıq-aydın yazılmayan müddəalara və məsələlərə aydınlıq gətirir və dövlətlərin öhdəliklərini müəyyən edir. Fərdi şikayətlərlə yanaşı, CEDAW Komitəsi məsələnin araşdırılması üçün məruzəçi təyin edə bilər. Həmin məruzəçilər fərdi şikayət üzrə qərarın yerinə yetirilməsi və ya ölkədə bu sahədə ümumi vəziyyətin öyrənilməsi üçün təyin olunurlar. Ən sonda Komitə illik hesabatlar hazırlayır ki, həmin hesabatlarda dövlətlər üzrə məruzəçilərin hazırladığı hesabatlar və fərdi şikayətlər üzrə məlumatlar yer alır.

İstanbul Konvensiyası da komitə təsis etmişdir. İstanbul Konvensiyası Komitəyə xüsusi anket sorğusu əsasında dövlətlərdən hesabat tələb etmək öhdəliyini həvalə etmişdir. Qəbul edilən hesabatlar əsasında Komitə maraqlı dövlətlərə tövsiyələr təqdim edir. İstanbul Konvensiyası əsasında yaradılan Ekspertlər Qrupu CEDAW Komitəsindən daha da irəliyə getmişdir. O, ölkə səfərləri üçün hüquqi müstəvi yaradıb. Ölkə səfərlərinin təşkili milli hakimiyyət orqanları və müstəqil ekspertlər ilə qarşılıqlı əməkdaşlığa əsaslanıb. Bu iki səbəbə görə edilir: əgər alınan informasiya yetərli deyilsə və ya Konvensiyada göstərilən hüquq və azadlıqların kütləvi şəkildə pozulması haqqında informasiya Komitəyə daxil olduqda.

AİHM məişət zorakılığını ayrı-seçkiliyin bir növü kimi qiymətləndirir. D.H. və başqaları Çexiyaya qarşı işdə Məhkəmə ayrı-seçkiliklə bağlı aşağıdakı standartları müəyyən etdi: ayrı-seçkilik eyni vəziyyətdə olan insanlara səbəbsiz fərqli rəftarın göstərilməsidir.[31] Daha sonra qeyd olunur ki, xüsusi olaraq bir qrupa qarşı yönəlməyən lakin ona qeyri-proporsional şəkildə mənfi təsir edən ümumi siyasət və ya tədbir də ayrı-seçkiliyin bir təzahürüdür və Konvensiyaya qarşı ayrı-seçkilik de facto vəziyyətdən qaynaqlana bilər.[32]Sübutetmə yükünə gəlincə, Məhkəmə bildirir ki, şikayətçi fərqli rəftarın olmasını göstəribsə, dövlət həmin fərqli rəftarın səbəbli və ədalətli olmasını sübuta yetirməlidir. Statistik məlumatların ayrı-seçkiliyin sübutu kimi istifadə edilməsində Məhkəmə fərqli yanaşma göstərib. Belə ki, daha erkən işlərdə Məhkəmə bildirmişdir ki, statistik məlumatlar təkbaşına sübut kimi istifadə oluna bilməzlər[33]. Lakin son illərdə dolayı ayrı-seçkiliyi yəni de facto fərqli rəftarı əks etdirmək üçün statistikadan sübut kimi istifadə oluna bilər. Yəni neytral dillə yazılmış lakin reallıqda xüsusi bir qrupu əlverişsiz vəziyyətə salan qanunun mənfi təsirini rəsmi statistika ilə sübuta

[31] *Willis v. theUnitedKingdom*, no. 36042/97, § 48, ECHR 2002-IV
[32] *HughJordan v. theUnitedKingdom*, no. 24746/94, § 154, 4 May 2001
[33] *HughJordan v. theUnitedKingdom*, no. 24746/94, § 154, 4 May 2001§ 154



yetirmək olar. Dövlət isə əksinə əlverişsiz rəftarın ayrı-seçkiliklə bağlı olmadığını, obyektiv faktorlarla əlaqəli olmasını sübuta yetirməlidir. Regional mexanizmlər arasında İnter-Amerika sisteminin məişət zorakılığı sahəsində roluna diqqət yetirmək lazımdır. İnter-Amerika sistemi insan hüquqları normalarından və nəzarətedici orqanlardan ibarətdir. İnsan hüquqları normaları əsasən iki fərqli mənbədən qaynaqlanır: Amerika Dövlətləri Təşkilatının 1948-ci il Nizamnaməsi və İnsan hüquq və vəzifələri üzrə Amerika Nizamnaməsi. İnter-Amerika sistemi daxilində məişət zorakılığına qarşı oturuşmuş hüquq praktikası yaradılmışdır. Bir sıra tanınmış işlərdə İnter-Amerika Komissiyası dövlətlərin bu sahədə görəcəyi vəzifələri sadalayıb.

Üçüncü fəsil **"Məişət zorakılığı sahəsində dövlətlərin qanunvericiliklərinin müqayisəli təhlili"** adlanmaqla üç paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** məişət zorakılığı sahəsində dünya dövlətlərinin qanunvericilik praktikası təhlil olunmaqla bu sahədə mövcud qanunvericilik xarakterizə olunur və qabaqcıl normaların Azərbaycan qanunvericiliyinə implementasiyası təklif olunur. Avropa Şurası üzvü olan bəzi dövlətlərdə, yəni Albaniya, Avstriya, Bosniya və Herseqovina, Estoniya, Yunanıstan, İtaliyada və s. tələb olunur ki, ailədaxili zorakılığa dair işlərdə qurbanın şikayətini geri götürməsinə baxmayaraq cinayət işinin icraatı davam etdirilməlidir.[34] Azərbaycan, Rusiya Federasiyası, İngiltərə, Fransanın da daxil olduğu digər üzv dövlətlərdə isə dövlət orqanları aildaxili zorakılıq törədənlərə qarşı cinayət təqibinə başlayıb-başlamamaq barədə qərar verməkdə müəyyən qiymətləndirmə sərbəstliyinə malikdirlər. Bu fərqlər isə hüquq sistemləri arasındakı bənzərsizliklərdən doğur. Lakin hüquq sistemlərindəki və yanaşmalardakı fərqlərə baxmayaraq dövlət orqanları öz əsas vəzifələrini yerinə yetirməlidirlər. Onların əsas vəzifəsi cinayətkarı cəzalandırmaq deyil, qurbanı öncədən təhmin edilə bilən cinayətdən qorumaqdır.

Böyük Britaniyada məişət zorakılığına qarşı mübarizə XX əsrin 70-ci illərində yeni qanunların qəbulu ilə nəticələndi.[35] 1976-cı il Məişət zorakılığı və ailə hüququ icraatı Qanunu rəsmi nikahda olan cütlüklərə və vətəndaş nikahında yaşayan heteroseksuallara mühafizə orderini əldə etmək hüququnu verirdi.[36] Yəni bu Qanun əsasında mühafizə orderini almaq üçün rəsmi nikahdan kənar yaşayan cütlüklər daimi bir evdə və birlikdə yaşamalı idirlər və boşanmamış olmalı idilər ki, bu da Qanunun əhatə dairəsini məhdudlaşdırırdı. 1976-cı il Qanunu

[34] Писклакова-Паркер М., Синельников А. и др. Низакона, несправедливости: Насилие в отношенииженщин в России. Москва. 2010. стр. 64
[35] Burton M. Legal responses to domestic violence. New-York.Routledge-Cavendish. 2008.s.11
[36] .Felson R.B., Cares A.C. Gender and the seriousness of assaults on intimate partners and other victims. Journal of Marriage and Family № 67. 2005. p. 182

qısamüddətli müdafiəni özündə əks etdirir. 1976-cı il Qanununa əsasən, fiziki zədənin törədildiyi faktı sübuta yetirildikdə, magistrat məhkəmələri həbs qəti-imkan tədbirinin tətbiqi haqda qərar çıxara bilərlər.[37] Fiziki zədə termini fiziki zorakılıqla yanaşı, psixoloji təzyiqi də ehtiva edir. Qanunla həbs qəti-imkan tədbirinin nəzərdətutulmasına baxmayaraq reallıqda onun tətbiqinə az rast gəlinirdi. Birləşmiş Krallıqda məişət zorakılığına birbaşa həsr olunmayan, ancaq bilvasitə çıxarılma orderinin verilməsi qaydalarını tənzimləyən Ailəvi yaşayış evləri haqqında Qanun (MatrimonialHomes Act) 1983-cü ildə qəbul olundu. Qanun yenə də yalnız rəsmi nikahda olan kişi və qadınlar üçün qüvvədə idi.[38]Həm Qanunun özü, həm də onun məhkəmələr tərəfindən təfsiri tərəflərin bir-birilərinə qarşı əks münasibətini və davranışları çıxarılma orderinin verilməsi üçün əsas kimi qiymətləndirir, yəni zorakılıq real və şiddətli olmalıdır ki, çıxarılma orderi verilsin və bu halda uşaqların maraqlarına az əhəmiyyət verilirdi. Ailəvi yaşayış evləri haqqında Qanun zorakılıq qurbanının fiziki təhlükəsizliyindən daha çox tərəflərin məişət zorakılığı nəticəsində mülkiyyət hüquqlarının qorunmasına və ya onlardan məhkum edilməyə həsr edilmişdir.

ABŞ-ın bu sahədə qanunvericiliyinin təhlili diqqətəlayiqdir. Maraqlı bir aspektdir ki, ABŞ ənənəyə sadiq qalaraq insan hüquqları sahəsində beynəlxalq sənədlərə üzv olmağa tələsmir. Əksinə, insan hüquqları sahəsində öz standartlarınnı müəyyən edir ki, bunun da səbəbini dövlətdaxili standartların beynəlxalq standartlardan üstün və daha mükəmməl olması ilə əlaqələndirirlər. 1994-cü ildə Konqress "Qadınlara qarşı zorakılıq" Qanununu qəbul etdi.[39] Bu Qanun və ona əlavələr məişət zorakılığını federal cinayət kimi qiymətləndirərək onu ştatların yüklü məhkəmə sisteminin əlindən alaraq federal məhkəmələrə həvalə edir. Həmin Qanun məişət zorakılığına qarşı hüquqi tədbirləri nəzərdə tutmaqla yanaşı, miqrant, əngəlli və müxtəlif etnik qruplardan çıxmış qadınlara yardım məqsədilə dövlət proqramlarının hazırlanması və maliyyələşməsini nəzərdə tutur. 1994 və 1996-cı illərdə Konqress Silaha nəzarət Qanununa dəyişiklik edərək bəzi hallarda məişət zorakılığı törətmiş şəxslərin silaha sahiblik və ondan istifadəsini qadağan edir.

Ən sonda post-sovet ölkələrinin məişət zorakılığına qarşı mübarizə sahəsində atdığı addımlara diqqət yetirmək yerinə düşərdi. SSRİ-də və Şərqi Avropada kommunist sisteminin dağılmasına qədər məişət zorakılığı hüquqi və sosial problem kimi tanınmırdı. SSRİ-də belə bir fikir hökm sürürdü ki, qadın və kişi bərabərliyi əldə olunub və cinslər arasında hər-hansı zorakılıq yoxdur.[40]

[37]Lockton D. Domesticviolence. London. Cavendish Publishing Limited. 1997. s.45
[38]Burton M. Legal responses to domestic violence. New-York.Routledge-Cavendish. 2008.s.38
[39]Blanchfield L. International violence against women.Nova Science Publishers, Inc. New York. 2009. p.49
[40]Fabian K. Domestic violence in postcommuniststates.Indiana University Press. 2010. p. 12



Ancaq sovet sisteminin çökməsindən sonra qərbdən gələn insan hüquqları dalğası məişət zorakılığı probleminə diqqətin ayrılmasına imkan yaratdı. Post-sovet ölkələri sırasında məişət zorakılığına qarşı uğurlu mübarizə aparan dövlətlərdən biri Ukraynadır. Buna da əsas səbəb Ukraynanın BMT və Avropa Şurasının tövsiyələrini yerinə yetirməsidir. Ukraynada hüquq mühafizə orqanlarına ildə ailədaxili şiddətlə bağlı 90.000 şikayət təqdim olunur və 6000-7000 civarında mühafizə orderi verilir.[41] Bu, qanunların ölü deyil, yerli icra və hüquq-mühafizə orqanları tərəfindən tətbiqinin göstəricisidir. Ukraynada 18 krizis mərkəzi, psixoloji yardım göstərən 24 mərkəz və 6 sığınacaq fəaliyyət göstərir. 2001-ci ildə Məişət zorakılığı sahəsində qanun qəbul edən ilk post-sovet ölkəsi olaraq, Ukrayna məişət zorakılığını xüsusi cinayət kimi tanıyır, effektiv hüquqi tədbir olan mühafizə orderlərinin verilməsini və yardım mərkəzlərinə dövlət dəstəyini qanunla nəzərdə tutur.

Daha acınacaqlı vəziyyət Rusiya Federasiyasındadır. Krizis mərkəzlərinin fəaliyyətinin başlanmasına baxmayaraq təəccüblü olsa da, məişət zorakılığının qarşısının alınması üzrə xüsusi qanunvericilik aktı qəbul olunmayıb.[42] Məişət zorakılığı haqqında qlobal feminist normalar 1990-cı illərin əvvəllərində Rusiyada hökmranlıq edən məişət zorakılığı haqqında bilgi və inanclardan qəti surətdə fərqlənirdi. Eyni vəziyyət Qazaxıstanda da hökm sürürdü.Misal üçün, geniş ailələr, patriarxal adət-ənənələr, nikahdan əvvəl gəlin üçün başlığın tələb olunması adi hal və təcrübədir və həm şəhər, həm də kənd ailələləri arasında geniş yayılmışdır. Bundan əlavə, Werner (2003) məruzə etmişdir ki, adam oğurlanmasınıncinayət məsuliyyəti yaradan hərəkət olmasına baxmayaraq gəlinlərin oğurlanması halları hətta çoxalmışdır.

**İkinci paraqrafda** dövlət daxili səviyyədə məişət zorakılığına qarşı səmərəli mübarizənin şərti kimi Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması təhlil olunur.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ münaqişəsi nəticəsində üzləşdiyi qaçqın seli də məişət zorakılığı probleminin şiddətlənməsinə zəmin yaratdı. İqtisadi-sosial problemlərin dərinləşməsi məcburi köçkün və qaçqın qadınların ailədaxilində hüquqlarının müdafiəsini arxa plana atmışdır. Lakin ərazimizin 20% işğalı probleminə baxmayaraq Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında da qadınların hüquqlarının müdafiəsini təsbit edən maddələr əks edilmişdir. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının

[41]For statistics on the incidence of domestic violence cases for the years 2006-2008. See Ukranian Ministry of Family, Youth and Sport, 2008. www.kmu.gov.ua/sport/control/uk/publish/article
[42]Дориньи М. Российская федерация: некуда бежать: домашнее насилие над женщинами. Лондон. 2005. стр.13

Konsitusiyasının ikinci bölməsinin üçüncü fəslinin 25-ci maddəsinin ikinci bəndinə əsasən, kişi və qadının eyni hüquqları və azadlıqları vardır. [43]

İnsanların gender əsasında ayrı-seçkiliyə məruz qalmasının qarşısının alınmasında ikinci böyük və əməli addım 10 oktyabr 2006-cı ildə Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azəbaycan Respublikasının Qanunun qəbul edilməsi oldu.Yuxarıda adıçəkilən Qanunda gender, cinsi mənsubiyyətinə görə ayrı-seçkilik, bərabər imkanlar və s. terminlərin anlayışları verilməklə yanaşı, seksual qısnamanın da anlayışı burada təsbit olunmuşdur. Çox təqdirəlayiq haldır ki, möhtərəm cənab Prezident İlham Əliyev cəmiyyətin maraqlarını və gələcəyini nəzərə alaraq “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununun qəbul olunmasında öz dəstəyini göstərmişdir.

Qanunun müsbət tərəflərindən biri odur ki, o həm cari zamanda birgə yaşayan ər-arvada, həm də keçmiş ər-arvada şamil olunur. Belə ki, bəzi hallarda boşanma və ya ayrılmadan sonra belə keçmiş ər öz keçmiş həyat yoldaşı üzərində cansız əşyaya olan tərzdə sahiblik hüququnun həyata keçirmək ambisiyalarına sahib olur.Bu halda qadın rəsmən boşanmasına rəğmən özünü tirandan azad hiss etmir. Qadınların boşanmadan sonra belə vəziyyətlərdə müdafiəsiz olduqlarından bu maddənin olması təqdirəlayiqdir.Sonrakı təqdirəlayiq hal isə qanuni nikahda olmadan birgə yaşayan kişi və qadınlara qanun əsasında müdafiənin verilməsidir. Bu müddəa ilə Qanun nikahda yaşayan və nikahdan kənar yaşayan cütlüklər üçün bərabər imkanlar yaradır. Azərbaycan Respublikasında bu istiqamətdə bir qanun layihəsinin Milli Məclisdən oxunuşdan keçməsi və Cənab Prezident İlham Əliyev tərəfindən təsdiq edilməsi bir daha onu göstərir ki, məişət zorakılığının qarşısının alınması sahəsində ilk addımlar atılır və gələcəkdə də ölçülər götürələcəkdir. Qanun məişət zorakılığının tətbiq ediləcək insanlar dairəsinə nəzər yetirsək görərik ki, yaxın qohumluq münasibətləri və birgə yaşayış subyektlərin müəyyən edilməsində əsas kriteriya kimi götürülür.

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu məişət zorakılığının dörd növünü də tanıyır ki, bura da fiziki, mənəvi, cinsi və iqtisadi zorakılıq aiddir.Qanunun 4-cü maddəsi həmin Qanunun şamil edildiyi şəxslərin dairəsinə aiddir. Qanunun beşinci maddəsi məişət zorakılığı barədə şikayətlərə baxan dövlət orqanlarına həsr olunmuşdur. 5.1-ci maddəyə əsasən, məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır. Beşinci maddəninbirinci bəndi konkert olaraq məişət zorakılığı zəmnində baş verən

[43]Azərbaycan Respublikası Konstitusiyası. Qanun. Bakı, 2009,m.25



cinayətlərə baxılmasını və onların cəzalandırılmasını cinayət-prosessual qanunvericiliyə həvalə edir.

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 5-ci maddəsinin 2-ci bəndi cinayət tərkibinin əlamətləri olmayan məişət zorakılığıhallarının araşdırılmasına həsr olunub. Qanunun 5.2.-ci maddəyə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Göründüyü kimi, Qanun ümumi şəkildə cinayət tərkibi olmayan məişət zorakılığının müvafiq icra hakimiyyəti orqanı tərəfindən araşdırılmasını nəzərdə tutur. Cinayət təqibi doğurmayan məişət zorakılığı ilə bağlı şikayətə baxılmanın prosedur qaydaları yuxarıda adıçəkilən "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"ilə dəqiq müəyyən olunur. Qaydanın 3-cü maddəsi bütövlüklə prosedur qaydalarına həsr olunub. Qaydanın 3.1-ci maddəsinə uyğun olaraq, məişət zorakılığı ilə bağlı şikayətə 5 (beş) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. Şikayətin araşdırılması anlayışına hansı məhfumların aid olmasına həm Qaydada, həm də Qanunda aydınlıq gətirilir.

Qanunun 10-cu maddəsi mühafizə orderinin anlayışına, 11-ci maddəsi qısamüddətli mühafizə orderinin verilməsinə, 12-ci maddəsi isə uzunmüddətli mühafizə orderinin verilməsinə həsr edilmişdir. Qanunun üçücü fəsli məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərə yəni hüquqi, sosial və qabaqlayıcı tədbirlərə həsr olunub.

**Üçüncü paraqrafda** məişət zorakılığından qorunmanın prosedur mexanizmləri araşdırılır. Uzun müddət ərzində Azərbaycanda ailə münasibətlərinə dövlət tərəfindən müdaxilə mənfi qarşılanırdı. Lakin illər ərzində dövlət orqanlarının vətəndaş cəmiyyəti ilə birgə apardıqları təbliğat kampaniyaları məişət zorakılığının cəmiyyətə mənfi təsirini açıqladı. Dövlət orqanları məişət zorakılığına qarşı maarifləndirmə tədbirlərini aparır. Maarifləndirmə sahəsində xüsusi dövlət funksiyalarını Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi daşıyır. Komitə ailə, qadın və uşaq problemləri sahəsində Azərbaycan dövlətinin siyasətini həyata keçirən, bu sahədə inkişafı təmin edən müvafiq mərkəzi icra hakimiyyəti orqanıdır. Komitənin əsas vəzifələrindən biri insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, onların pozulmasının qarşısının alınmasıdır. Məişət zorakılığının qarşısının alınması sahəsinə dair Komitə öz fəaliyyətini digər dövlət orqanları ilə əlaqəli qurur. Komitə monitorinqlər keçirir və nəticədə statistik məlumatları əhaliyə çatdırır. Komitə tərəfindən ailə institutunun möhkəmləndirilməsi, ailə hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı qanunla müəyyən edilmiş qaydada dövlət

nəzarəti həyata keçirilir, ailələrin sosial rifahının və etibarlı sosial müdafiəsinin təmin edilməsi komitənin 2008-ci il üçün əsas fəaliyyət istiqaməti olmuşdur. Komitə aşağıdakı məsələlərlə məşğuldur: ailələrin problemlərinin həlli; ailədaxili zorakılığın qarşısının alınması; erkən nikah hallarının sayının azaldılması. Komitə həm də axırıncı bir neçə il ərzində maarifləndirmə sahəsində məqsədli iş aparır. Bundan əlavə Komitə bu sahədə statistik məlumatlar toplayır. Məlumatın toplanması, xüsusilə də statistik məlumatların toplanması qanunvericiliyin effektivliyinin yoxlanılması və monitorinqi üçün olduqca vacibdir. Bu cür analitik fəaliyyət aşağıdakı məlumatların kompilyasiyasını ehtiva edir: hüquqpozucusu yenidən zorakılığa təkrarən əl atıbmı, əgər əl atıbsa, epizodlar nə vaxt baş verib və eyni qurbana qarşı həyata keçirilibmi. Son illərdə əldə olunmuş inkişafa baxmayaraq qanunvericilik normalarının işlənilməsi üçün lazımi məlumatların toplanılması üçün qadınlara münasibətdə zorakılıqların bütün formaları haqqında bilik bazasının möhkəmləndirilməsinə ehtiyac qalmaqdadır. Bunun mümkün olduğu hallarda yuxarıda qeyd olunmuş məlumatların toplanılması üçün milli statistika idarələrinin işə cəlb olunması yerinə düşərdi. Bəzi ölkələrdə məlumatın toplanması kimi fəaliyyətin vacibliyi bilavasitə qanunvericilikdə təsbit olunub. İtaliyada 2007-ci ildə qəbul olunmuş Maliyyələşdirilmə haqqında Qanuna əsasən Qadınlara qarşı zorakılıq problemi üzrə Milli Müşahidə Mərkəzi yaradılmışdır və illik büdcə 3 mln. avrodur. Qvatemalada 2008-ci ildə qəbul edilmiş Qadınların qətl edilməsi və qadınlara qarşı zorakılığın digər formaları ilə mübarizə haqqında Qanun milli statistik büronu məlumatların toplanmasına və qadınlara qarşı zorakılığın göstəricilərinin işlənib hazırlanmasını məcbur edir. 2006-cı ildə Albaniyada qəbul olunmuş Ailə münasibətlərində zorakılığa qarşı ölçülər haqqında Qanun Əmək və sosial məsələlər üzrə Nazirliyə məişət zorakılığı sahəsində statistik məlumatların toplanmasını həvalə edir. Polşada 2005-ci ildə qəbul olunmuş Məişət zorakılığı haqqında Qanunun 7-ci və 8-ci maddələri ailədaxili şiddətlə mübarizə sahəsində analitik işin və tədqiqatların aparılmasını və maliyyələşdirilməsini Sosial məsələlər Nazirliyinə həvalə edir.

Qanunun 5-ci maddəsi xüsusi prosedur-prosessual normalar sisteminin əsas şərtlərini müəyyən edir. Bu maddə məişət zorakılığına dair şikayətlərin baxılmasının aidiyyətini fərqləndirir. Belə ki, cinayət faktları ilə bağlı zorakılıq haqqında şikayətlərə baxılma qaydaları cinayət-prosessual qanunvericiliyinə aid edilir. Cinayət aşkar edildikdə, dərhal cinayət işi başlanır və cinayət-prosessual qaydada cinayət təqibi aparılır. Bu prosedur qaydaları CPM ilə müəyyən edilir, ona görə təkrarlığa yol verməmək məqsədilə ilə bu Qanunda CPM istinad edən maddələrdən istifadə edilir. Bu məsələyə artıq yuxarıdakı bölmələrdə toxunmuşduq. Lakin bu sahədə xarici ölkələrin təcrübəsinə istinad etmək yerinə düşərdi. Belə ki, İtaliyada bir çox polis bölmələrində qadınlardan daxil olmuş və cinsi zorakılığa aid şikayətləri qəbul edən xüsusi təhqiqat qrupları



yaradılmışdır.Həmin bölmələrin yaradılması ixtisaslaşdırılmış və xüsusi təlim keçmiş təcrübəli mütəxəssislərin hazırlanmasını labüd edir ki, onlar da öz növbəsində məişət zorakılığı cinayətlərinə incə yanaşmanı tətbiq edəcəklər və nəticədə zorakılıq qurbanları daha böyük rahatlıqla ifadə verməyə meylli olacaqlar.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktiki əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Məişət zorakılığının aid edildiyi subyektlərin müəyyən olunması və onun tarixi aspektləri. Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2013, № 59, s.224-229.
2. Therole of Council of EuropeConvention on preventing and combatingviolenceagainstwomen and domesticviolence. Beynəlxalq hüquq və inteqrasiya problemləri, (elmi-analitik və praktiki jurnal) Bakı, 2013, № 2 (34), s. 77-86.
3. Məişət zorakılığının genderə əsaslanmış ayrı-seçkiliklə əlaqəsi. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı, II cild, 2013, s.269-271.
4. Гендерный вопрос в контексте домашнего насилия. Материалы международной научно-практической конференции «Держава Громадянськесуспільство: стан та перспективирозвитку», Ирпень, 2013, стр. 6-7.
5. Gender bərabərliyinin inkişaf tarixi və onun məişət zorakılığı probleminə təsiri. Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2014, № 4, s. 140-145.
6. Role of HeydarAliyevFoundationinanalysis and implementation of maininternationaldocumentsintoAzerbaijanilegislationinthesphere of domesticviolence. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Foundunun 10 illik fəaliyyətinə həsr edilmiş xüsusi buraxılış- № 2 (38), 2014, s. 144-155.
7. Проблема домашнего насилия и ее жертвы. Право и суспільство (научный журнал), № 4, Днепропетровск, 2015. Стр. 205-209.
8. Evolution of definition and scope of victims of domesticviolence: comparativeanalysis of Azerbaijani and foreignstates` legislations. «Нові векторы розвитку демократіі та інститутів державиІ права», Сборник материалов Международной юридической научно-практической конференции, Киев, 2015, стр. 56-61.
9. Məişət zorakiliği sahəsində dövlətlərin lazimi səy konsepsiyasinin mahiyyəti. Beynəlxalq hüquq və inteqrasiya problemləri, (elmi-analitik və praktiki jurnal) Bakı, 2015, № 3 (43), s. 40-43.

## РЕЗЮМЕ

Представленная Гюльназ Рафаил кызы Алескеровой диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 –«Международное право; права человека» на тему «Проблема борьбы с домашнем насилием в международном и внутригосударственном праве» является самостоятельным, творческим и завершенным исследовательским трудом. Диссертация, отражая в себе абсолютно новые научные положения, играет важную роль в анализе таких вопросов, как понятие домашнего насилии в законодательстве, в том числе вопросов правовой защиты жертв домашнего насилия и соотношения законодательства Азербайджана с международно-правовыми нормами в данной области. Диссертация сформировалась на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государств, Азербайджанскую Республику, и разнообразных подходов, существующих в правовой литературе. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении автор обосновывает актуальность темы, а также рассматривает степень разработанности проблемы, научную новизну, цели и задачи, научные положения, выносимые на защиту, теоретическую и практическую значимость исследования.

Первая глава диссертации называется «Домашнее насилие как обьект совместного регулирования международного и внутригосударственного права» и включает в себя два параграфа. В этой главе исследуются особенности проблемы домашнего насилия и его жертв, а также история формирования борьбы с домашним насилием.

Вторая глава называется «Международно-правовые механизмы борьбы с домашним насилием» и состоит из трех параграфов. В данной главе анализируется проблема защиты жертв домашнего насилия в международных актах универсального характера и в региональных конвенциях.

Третья глава, состоящая из трех параграфов, называется «Сравнительный анализ законодательств государств в сфере домашнего насилия». В данной главе в контексте имплементации международно-правовых норм во внутригосударственное законодательство рассматриваются особенности законодательства зарубежных стран и Азербайджана в сфере регулирования прав жертв и обязанностей государственных органов и вопросы усовершенствования нашего законодательства.

В заключении представлены в ходе исследования важнейшие выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.



## SUMMARY

The dissertation work presented by Gulnaz Rafail Alasgarova for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation“5603.01-International law; human rights” entitled “Problem of tackling domestic violence in domestic and international law” is an independent, creative and completed work. The dissertation work discusses new scientific theses and plays an important role in analysis of such issues as the definition of domestic violence in the legislation as well as the issue of legal protection of victims of domestic violence, including correlation between the legislation of the Republic of Azerbaijan and western Europoean countries and norms of international law in this field. The dissertation work is formed on the basis of comparative analysis of diverse approaches, existing in the legal literature, legislation of different countries, including Azerbaijan, and international human rights instruments. The dissertation work consists of introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction. The scope of analysis and novelty of the topic, aims and goals, new scientific claims and new approaches to the topic presented for the defence, theoretical and practical importance of research are also discussed in the introduction.

The first chapter is entitled “Domestic violence as a subject of joint regulation of domestic and international law” and consists oftwo paragraphs. This chapter is devoted to the peculiarities of domestic violence and its victims, as well as to the formation of history of tackling domestic violence.

The second chapter of the dissertation work is entitled “International-legal mechanisms of combating domestic violence” and consists of three paragraphs. This chapter discusses problem of protection of victims of domestic violence in international legal acts of universal and regional character in the scientific-theoretical and practical context.

The third chapter, entitled “Comparative analysis of legislation of states in the field of domestic violence”, consists of three paragraphs. This chapter deals with the main characteristics of the legislation of foreign states and Azerbaijan in the light of implementation of international legal norms. It also analyses the role of state bodies of the Republic of Azerbaijan.

The conclusion of the dissertation work comprises the suggestions, the recommendations and the conclusions drawn based on the results of the research. The conclusion also considers theoretical and practical importance of the research for domestic and international legislative systems.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

***На правах рукописи***

**ГЮЛЬНАЗ РАФАИЛ кызы АЛЕСКЕРОВА**

# ПРОБЛЕМА БОРЬБЫ С ДОМАШНЕМ НАСИЛИЕМ В МЕЖДУНАРОДНОМ И ВНУТРИГОСУДАРСТВЕННОМ ПРАВЕ

**Специальность: 5603.01 - «Международное право;
права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по праву**

**БАКУ – 2016**